# Azərbaycan vokal musiqisində Ə.Cavidin yeri

**Azərbaycan ədəbiyyatının çox parlaq simalarından olan böyük dramaturq, tanrısı gözəllik və sevgi olan Hüseyn Cavid bulağından su içən, Hüseyn Cavid ocağından nur alan Ərtoğrol Cavid yaradıcılığı olduqca rəngarəng və geniş şaxəli olmaqla milli ədəbi-mədəni irsimizin zəngin səhifələrindən birini təşkil edir.**

**Yaradıcılıq həyatında fəaliyyətinin əhatə etdiyi sahələrin genişliyi, onun istiqamət və təmayül rəngarəngliyi, Ə.Cavid haqqında şair, dramaturq, rəssam, bəstəkar, filoloq və tədqiqatçı kimi bəhs edilməsinə imkan verir. O, elmi və bədii yaradıcılığa çox böyük, tükənməyən potensialla yanaşaraq gördüyü işin dəyərli və mükəmməlliyinə çalışmış, qarşısına qoyduğu məqsədə çatmaq üçün çox məsuliyyətli və hədsiz dərəcədə prinsipial mövqeyi ilə fərqlənmişdir.**

Azərbaycan musiqi tarixində özünü bəstəkar kimi təsdiqləməkdən belə çəkinməyən Ə.Cavid bir sıra vokal və instrumental əsərlərin müəllifidir. Ə.Cavidin yaradıcılığında vokal əsərlər müəyyən yer tutur. Bu sahədə bəstəkarın yaradıcılıq axtarışları öz əksini tapmışdır. Ümumiyyətlə, Ə.Cavid Azərbaycan milli musiqisini çox dəyərləndirmişdir. Onun vokal sahəsində yaratdığı bütün əsərlərinin kökündə milli musiqi durur.

Onun "Səninlə olaydım", "Sevgili yar gəlmiş idi", "Eşq olsun", "Quşlar", "Leylanın vəsfi" və digər yaratdığı əsərlər bu sahənin dəyərli nümunələridir.

Ə.Cavid öz əsərlərinin poetik mətni kimi Nizami Gəncəvi, Abbas Səhhət, Nigar Rəfibəyli, Tahir Rasizadə kimi şairlərin şeirlərinə müraciət etmişdir.

Bəstəkarın vokal yardıcılığında "Quşlar" mahnısını nəzərdən keçirək. Mahnı 1940-cı ildə Abbas Səhhətin sözlərinə kuplet formasında bəstələnmişdir. 1-ci hissə axıcı, mülayim xarakter daşıyır. Mahnı 2 hissədən ibarətdir. Hər 2 cümlə əsərin tonikasında bitir. 1-ci hissə period formasında bəstələnmişdir. Period isə melodik intonasiya baxımından oxşar olan 2 cümlə əsasında qurulmuşdur. Mahnının nəqərat hissəsi 2 cümlədən ibarətdir. Bu cümlələr sual-cavab prinsipi əsasında qurulub. Cümlələrin yalnız sonu bir-birindən fərqlidir. Belə ki, 1-ci cümlə yarım kadensiya, 2-ci isə tam kadensiya ilə bitir. Mahnının sonunda melodik intonasiya inkişafının kulminasiyasında koda səslənir. Bu koda mahnının ən yüksək notunda, yəni mayenin oktavası ilə bitir.

Bildiyimiz kimi, Azərbaycan bəstəkarlıq məktəbinin təşəkkül dövründə bəstəkarlar qarşısında duran əsas problemlərdən biridə özünəməxsus bədii üslubun formalaşması ilə bağlı idi. Qeyd etmək lazımdır ki, bu son dərəcə mürəkkəb problemin əsas həlledici amillərindən biri də bəstəkarlıq musiqisində milli musiqinin özünəməxsus lad-məqam xüsusiyyyətlərinin təcəssümü ilə bağlı idi.

Artıq yuxarıda qeyd etdiyimiz kimi, Ə.Cavid istər vokal, istərsə də instrumental yaradıcılığında mili lad-məqam sisteminin ünsürlərini yaradıcı şəkildə tətbiq etmişdir. Qeyd etməliyik ki, bu baxımdan "Quşlar" mahnısı istisna təşkil etmir. Belə ki, bu mahnının əsasını "Bayatı-şiraz" məqamının özünəməxsus intonasiyaları təşkil etmişdir. Bu məqama məxsus olan artırılmış sekunda üzərində qurulmuş səciyyəvi intonasiyalar təhlil etdiyimiz mahnıya xüsusi kolorit gətirir.

"Quşlar" mahnısında musiqi və poetik mətnin qarşılıqlı əlaqələri də maraq doğurur. Bu mahnıda poetik mətnin hər hecası bir qayda olaraq, bir nota bərabərdir. Musiqi baxımdan geniş inkişafa məruz qalmayan heca notların üstünlük təşkil etməsi uşaq mahnısı janrının spesifikasına uyğundur.

Mahnının musiqi dilinin özəlliklərinin qısa icmalı bizi belə qənaətə gətirir ki, Ərtoğrol Cavidin "Quşlar" mahnısı uşaq musiqi ədəbiyyatının ən dəyərli nümunələrindən biridir.

Səciyyəvidir ki, Ə.Cavidin poetik yaradıcılığı Azərbaycan məktəbinin sonrakı nəsilləri üçün də ilham verici mənbəyə çevrilmişdir. Belə ki, Ə.Cavidin yaradıcılığının araşdırıcısı və təbliğatçısı bəstəkar Rəşid Şəfəq öz mahnısının poetik mətni üçün Ərtoğrolun "Bizim bağ" şeirini seçmişdir.

Ümumiyyətlə, qeyd olunmalıdır ki, Rəşid Şəfəq Ərtoğrol Cavidin yaradıcılığının təbliğ edilməsi sahəsində çox mühüm işlər görən şəxslərdəndir. Məhz Rəşid Şəfəqin səyi nəticəsində Ərtoğrol Cavidin əsərləri toplu halında işıq üzü görmüşdür. Bəstəkarın öz mahnısının poe-

tik mətni üçün Ə.Cavidin şeirini seçməsi bir daha unudulmuş sənətkarın yaradıcılığına diqqəti cəlb etmişdir.

Bu kiçik lövhədə Ə.Cavid romantik çalarlarla zəngin olan gözəl bir təbiət mənzərəsi təsvir olunmuşdur. Bəstəkar R.Şəfəq bu mahnını xor üçün bəstələmişdir. Soprano və altlardan ibarət olan xor partiturasında polifonik - imitasiya elementlərindən istifadə olunmuşdur. Belə ki, soprano səsləri ilə başlanan musiqi cümləsi uzun ostinant funksiyalarını yerinə yetirən not ilə bitir və bu ostinant fonda alt səsləri cümləni sanki davam etdirir. Mahnının nəqərat hissəsində soprano ilə altlar birlikdə melodiyanı ifa edirlər.

Xor üçün bəstələnmiş "Bizim bağ" mahnısında xor ifaçılığının müxtəlif ünsürləri tətbiq edilmişdir. Mahnının kiçik həcminə baxmayaraq burada xor ifaçılığına məxsus olan ən rəngarəng aqogika elementlərindən istifadə edilmişdir. Belə ki, mahnının əsas melodiyasını xora daxil olan səslər bəzən bir yerdə oxuyur, bəzi hallarda isə imitasiya edir. Mahnının melodiyası müxtəlif sıçrayışlarla, çeşidli metr və ritmik intonasiyalarla zəngindir.

Qeyd etmək lazımdır ki, mahnı sadə 2 hissəli formada bəstələnmişdir. Nəqərat hissəsi 1-ci hissədə həm faktura baxımından həm də lad-məqam nöqteyi-nəzərindən fərqlidir. Belə ki, əgər mahnının I hissəsi Rast ladında bəstələnibsə, mahnının nəqərat hissəsində artırılmış sekundanın (art. 2) səslənməsi yeni lad-intonasiya çalarları gətirir.

Melodikanın özünəməxsus koloriti, mahnının ümumi əhval-ruhiyyəsi, musiqi dilinin bəzi spesifik xüsusiyyətləri bizi belə nəticəyə gətirir ki, R.Şəfəq özünün "Bizim bağ" mahnısında Ə.Cavidin fərdi bəstəkarlıq üslubunun bəzi səciyyəvi xüsusiyyətlərini təcəssüm etdirməyə cəhd göstərmişdir.

Ə.Cavidin "Eşq olsun" mahnısı Böyük Vətən müharibəsi illərinin başlanğıcında qələmə alınmışdır. Bildiyimiz kimi, Azərbaycan bəstəkarları tərəfindən müharibə illərində vətənpərvərlik mövzusunda bir çox mahnılar bəstələnmişdir. Bu mövzuya müraciət edən ilk bəstəkarlardan biri də Azərbaycan bəstəkarlıq məktəbinin klassiki Ü.Hacıbəyli olmuşdur. Böyük Vətən müharibəsi illərində yazdığı "Yaxşı yol", "Şəfqət bacısı", "Ananın oğluna nəsihəti", "Əsgər marşı" mahnılarında, "Vətən və cəbhə" kantatalarında bəstəkar böyük məharətlə Azərbaycan milli musiqisinə xas olan intonasiyaları kütləvi xalq mahnılarının səciyyəvi elementləri ilə sintez etmişdir.

Ə.Cavidin "Eşq olsun" mahnısı vətənpərvərlik mövzusunda bəstələnmiş uğurlu mahnılardan biridir. Bu mahnı N.Rəfibəylinin sözlərinə bəstələnmişdir. Mahnı mürəkkəb üç hissəli formada yazılmışdır. "Eşq olsun" mahnısı dramatik xarakter daşıyan və mahnının ümumi əhval-ruhiyyəsini, məzmununu çatdıran fortepiano girişi ilə başlanır.

Mahnının I hissəsi əvvəlcə təhkiyyə xarakteri ilə başlanır. Sonra intonasiya məzmunu dramatikləşir və mahnının melodik xəttini dramatik kulminasiyaya doğru çatdırır. Mahnının harmonik dili də çox zəngindir. Re minorda (D-moll) bəstələnmiş mahnıda fortepiano müşayiətinin harmonik dilində müxtəlif septakkordların geniş şəkildə istifadəsi nəzərə çarpır.

Belə ki, mahnının I hissəsinin harmonik dilində 2-ci pillənin septakkordu (II7), dominant septakkord (D7), subdominanta, 7-ci pillənin septakkordundan (D7) istifadə olunmuşdur. "Getdiyin yollardan min zəfər gətir" sözləri ilə başlayan orta hissənin musiqi dili xromatizmlərlə zəngindir. Bu hissəni mahnının kulminasiyası da hesab etmək olar. Bu hissə fortepiano müşayiətinin vokal-veçetativ intonasiyaları ilə zəngin olan cümlələri ilə bitir. Və nəhayət, III hissə repriza xarakteri daşıyır. Lakin I hissədən fərqli olaraq burada melodiya marş üslubunda təqdim olunmuşdur. Bu əsas metroritmik şəkilçinin dəyişilməsi ilə əlaqədar olaraq mahnının əsas hissəsinin xarakterini də köklü şəkildə dəyişmişdir.

Belə ki, burada marş janrına xas olan intonasiyalar, metroritmik şəkilçilər, faktura özəllikləri nəzərə çarpır. Mahnı nikbin ruhda bitir və bu, əsasən, mahnının əsas tonallığı olan re minorun (D-moll) re majora (D-dur) modulyasiyası ilə keçir. "Eşq olsun" mahnısının təhlilini yekunlaşdıraraq qeyd etməliyik ki, Ə.Cavidin mahnısı vətənpərvərlik mövzusunda yazılmış əsərlərin maraqlı nümunələrindən biridir.

**Azərbaycan musiqi tarixinin vokal sahəsində Ə.Cavidin yaradıcılığı yeni və maraqlı bir səhifədir. Yaradıcılığı müxtəlif janrlı əsərlərlə təmsil olunan bəstəkarın vokal musiqi sahəsində ərsəyə gətirdiyi əsərlər milli musiqi mədəniyyətinə üzvi surətdə daxil olaraq, musiqi sənəti xəzinəsini zənginləşdirmişdir.**

**Aygül ƏHMƏDOVA,**
***ADMİU-nun musiqişünaslıq kafedrasının magistri***

**Ədəbiyyat**

1. Azər Turan. Əbədi Turan. Bakı - 2001.
2. H.Cavidin ev-muzeyi. Ə.Cavid arxivi. İş № 111.
3. M. Məmmədov. Böyük diləklər, böyük ümidlər şairi. "Cavidi xatırlarkən". Bakı. "Gənclik" - 1982.
4. R. Şəfəq. Oktyabr - Cavidlər ayıdır. "Savalan" qəzeti, 30 oktyabr 1993-cü il.